

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 118 (21.528)

29 iyun 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Son dövrdə aparılan iqtisadi islahatlar çərçivəsində muxtar respublikada biznes və investisiya mühitinin yaxşılaşdırılmasına mühüm önəm verilir. Lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, sahibkarlara dövlət maliyyə dəstəyinin davam etdirilməsi, iş adamlarının problemlərinə daha həssas yanaşılması məqsədilə apellyasiya şurasının yaradılması, dövlət satınalmalarında şəffaflığın artırılması bunun bariz ifadəsidir.*

## Muxtar respublikada investisiyaların təşviqi sahəsində tədbirlər görülür

İnvestisiya fəaliyyətinin genişləndirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 yanvar tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" və 2016-cı il 29 aprel tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi xüsusi vurğulanmalıdır. Bütün bunlar isə sahibkarlar tərəfindən muxtar respublika iqtisadiyyatına yeni investisiyaların cəlb olunmasını daha da stimullaşdırmaq məqsədi daşıyır.

Qeyd edilən sənədləri almış sahibkarlıq subyektləri Azərbaycan Respublikasının Vergilər Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş güzəştlərdən istifadəetmə hüququ əldə edirlər. Bu güzəştlər, əsasən, vergi və gömrük azadolmalarından ibarətdir. Belə ki, sahibkarlıq subyektinin əldə etdiyi gəlirin və mənfəətin 50 faizi 7 il müddətinə müvafiq vergilərdən, əmlakı isə 7 il müddətində əmlak vergisindən tam azad olunur. Həmçinin sahibkarlıq subyektləri tərəfindən xaricdən gətirilən texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumları və ƏDV-dən azad edilirlər.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası investisiya fəaliyyətinin həyata keçirildiyi inzibati ərazi vahidləri üzrə təsnifatda 5-ci regiona daxil edilib. Bu isə o deməkdir ki, muxtar respublikamız investisiya qoyuluşlarına tətbiq edilən minimal məbləğ baxımından ən yüksək güzəştlərə malik olan region hesab olunur.

İnvestisiyaların təşviqi məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən yerli və xarici investorlar arasında görüşlər keçirilib və investisiyanın təşviqi haqqında sahibkarlara geniş məlumat verilib. Belə ki, muxtar respublikada prioritet hesab olunan 30 investisiya layihəsi, eləcə də investisiya mühiti barədə zəruri məlumatları Azərbaycan və ingilis dillərində özündə əks etdirən elektron kataloq hazırlanmaqdadır. Yerli sahibkarlar arasında mütəmadi olaraq seminarlar, güzəşt mexanizminin təfərrüatları barədə məlumat xarakterli görüşlər keçirilir.

Qeyd edək ki, sahibkarlıq subyektlərinin ilkin müraciətləri əsasında muxtar respublikada avtomobil şinlərinin üzlənməsi və şin tullantılarının yenidən emalı, qeyri-nəcib metallardan qaynaq elektrodlarının istehsalı, müasir texnologiyaların tətbiqi ilə intensiv bostançılıq, süd emalı və xama istehsalı, zərgərlik məmulatlarının istehsalı və bir sıra digər iqtisadi fəaliyyət sahələri üzrə layihələrin monitorinqi başa çatdırılıb. Yaxın günlərdə həmin layihələrin investisiya təşviqi sənədi və təsdiqedici sənədlə təmin edilməsi nəzərdə tutulub.

Yeni icra edilməyə başlayan bu layihələrin təşviq mexanizmlərindən istifadə edilməsi istehsal olunan məhsulların rəqabət, müəssisələrin isə manevr qabiliyyətini xeyli artıracaqdır. Güzəştlərdən düzgün istifadə edən sahibkarlıq subyektləri dövlət tərəfindən tətbiq olunan dəstək mexanizmlərindən ciddi şəkildə bəhrələnəcəklər.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## Babək rayonunda sığorta fəaliyyəti genişləndirilir

***Babək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə tədbir keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov son illərdə rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb.***



Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti olduğunu vurğulayıb. Bildirilib ki, muxtar respublikamızda iqtisadiyyatın inkişafı, öz növbəsində, sığorta münasibətlərinin də genişlənməsinə şərait yaradır. Vətəndaşlar daşınmaz əmlakını, avtonəqliyyat vasitələrini, mülki məsuliyyətini icbari sığortalamaqla baş verən gözlənilməz hadisələrdən dəymiş maddi zərərlərin ödənilməsinə təminat alırlar. Baş direktor konkret sığorta hadisələrindən misallar gətirməklə vaxtında sığortalanmağın əhəmiyyətindən, ötən müddətdə Babək rayonunda bu istiqamətdə görülən işlərdən danışıb.

Hikmət Əsgərov Babək rayonunda sığorta sahəsində həyata keçirilmiş tədbirlərlə bərabər, icbari qaydada sığorta edilməli olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslərin olduğunu diqqətə çatdırıb. Bildirilib ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən, icbari qaydada sığortanın şamil olunduğu hər bir obyektin sığortası təmin edilməlidir.

Kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunan baş direktor deyib ki, bu il martın 29-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar keçirilən səyyari müşavirədə muxtar respublikada əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının sığortalanmasının təmin olunması tapşırığı verilib. Buna görə də bu sahədə fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri ilə aparılan işlər genişləndirilməlidir. Çünki kənd təsərrüfatı məhsullarının, ev əmlakının sığortası, fərdi qəza sığortası və digər könüllü sığortalar, son nəticədə, insanların rifahının yüksəldilməsinə xidmət edir.

Tədbirdə Babək Rayon Polis Şöbəsinin Dövlət yol polisi bölməsinin rəisi Seyidrza Seyidov, Babək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Yaşar Mustafayev, Nehrəm, Qahab və Məmmədrza Dizə kənd icra nümayəndələri icbari sığortaların vəziyyəti barədə danışıblar.

Tədbirə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov yekun vurub.

**✍ Əli CABBAROV**

*Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində Məzun günü keçirilib.*

## Məzunlar Hippokrat andı içiblər

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikada səhiyyənin inkişafına göstərilən yüksək diqqət və qayğıdan danışıb.

Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov fakültənin yaranması və inkişaf yolu haqqında məruzə ilə çıxış edib. Bildirib ki, universitetin Tibb fakültəsi 1999-cu ildə Təbiətşünaslıq fakültəsinin nəzdindəki Pediatriya ixtisasına 25 nəfərlik tələbənin qəbulu ilə fəaliyyətə başlayıb. Universitet Elmi Şurasının 3 iyun 2003-cü il tarixli qərarı ilə müstəqil Tibb fakültəsi kimi fəaliyyətini davam etdirir. Fakültənin nəzdində Təməl tibb fənləri, Tibbi klinik fənlər, Ümumi təbabət və gigiyena, Əczaçılıq və stomatologiya kafedraları fəaliyyət göstərir.

Qeyd olunub ki, yüksəkkeyfiyyətli tədrisin təşkili üçün fakültədə 6 kabinə və laboratoriya yaradılaraq lazımi avadanlıq və preparatlarla təchiz olunub. Həmçinin tələbələrin praktik biliklərinin artırılması məqsədilə onların Azərbaycan Tibb Universiteti ilə yanaşı, Türkiyə Cümhuriyyətinin bir sıra universitetlərinə yay istehsalat təcrübələrinə göndərilməsi təşkil olunur. Hazırda fakültədə 383 tələbə və 29 rezident təhsil alır ki, onlardan 77 nəfəri xarici ölkə vətəndaşıdır.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov, Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının müdiri, akademik Adilə Namazova məzunları təbrik edərək onlara gələcək həyatlarında müvəffəqiyyətlər arzulayıblar.

Sonra məzunlar müqəddəs Hippokrat andı içiblər.

Tədbirin bədii hissəsində məzunların, eləcə də İncəsənət fakültəsinin istedadlı tələbələrinin ifasında mahnılar səsləndirilib.

**Nərmin CABBAROVA**

## Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsinin inzibati binasında əsaslı təmir işləri aparılır

*Muxtar respublikada aparılan quruculuq tədbirləri, nəticə etibarilə, regionun simasını əsaslı surətdə dəyişib. Şəhər, qəsəbə və kənd yaşayış məntəqələri müasirliyə qovuşub. Abad yollar, müasir memarlıq üslubunda inşa olunmuş inzibati binalar böyük bir tarixi özündə yaşadan Naxçıvana xüsusi gözəllik bəxş edib.*

Sədərək rayonu da bu baxımdan diqqəti çəkən bölgələrimizdən birinə çevrilib. Burada son illər aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri müxtəlif sahələri əhatə edir. Yaşayış məntəqələrində inşa olunan kənd və xidmət mərkəzləri, təhsil və səhiyyə ocaqları kənd əhalisinin yaşayışına, həyat tərzinə də müsbət təsir göstərir.

Hər il olduğu kimi, bu il də rayonda tikinti-quruculuq işləri davam etdirilir. Bir neçə aydır ki, Sədərək kəndi ərazisində yerləşən rayon Mədəniyyət və Turizm Şöbəsinin binasında əsaslı təmir işlərinə başlanılıb.

Təmir işləri "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır.

Qeyd edək ki, inşaatçılar üçün normal iş şəraiti yaradılıb. Obyektdə yerli tikinti materiallarından istifadəyə üstünlük verilir, görülən işlər yüksək zövqlə, peşəkarlıqla və müasir memarlıq elementlərindən istifadə edilməklə yerinə yetirilir.

**Sərxan İSMAYILOV**

## Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə bayram tədbiri keçirilib

***Naxçıvan şəhərindəki "N" hərbi hissədə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 98-ci ildönümü münasibətilə bayram tədbiri olub.***

Tədbirdə çıxış edən Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmov tədbir iştirakçılarını 26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə təbrik edib, ordunun xalqın dayağı, döyünən ürəyi olduğunu bildirib.

Mirqiyas Rüstəmov deyib ki, əgər dövlətin ordusu güclüdürsə, həmin dövlət regionda söz sahibi kimi çıxış edə, özünün milli mənafelərini inamla qoruya bilər. Azərbaycan Silahlı Qüvvələrinin yarandığı gündən bu günə kimi şərəfli və keşməkeşli yol keçdiyini deyən natiq bu gün Silahlı Qüvvələrimizin dünyanın sayılıb-seçilən orduları-dan olduğunu qeyd edib.





Diqqətə çatdırılıb ki, bu ilin aprel ayının əvvəllərində Azərbaycan Silahlı Qüvvələri düşmən təxribatının qarşısını almaqla yanaşı, ona sarsıdıcı əks- zərbə vuraraq zəfər qazanıb, nəyə qadir olduğunu bir daha sübuta yetirib. Bununla da, düşmən Azərbaycan Ordusu qarşısında nə qədər gücsüz və aciz olduğunu anlayıb.

Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev 26 İyun – Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Vətənin müdafiəsində igidlik və mətinliklə dayanan bütün hərbi qulluqçuları təbrik edərək onlara çətin və şərəfli işlərində uğurlar arzulayıb. Kamran Quliyev deyib ki, 98 il bundan əvvəl yaranan Milli Ordumuz bu gün özünün gücü, qüdrəti ilə dünyaya səs salıb. Bu, hər bir vətənpərvər insanda qürur, fəxarət hissi yaradır.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının ifasında səsləndirilən musiqi nömrələri, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivinin çıxışları əsgərlərimiz tərəfindən maraqla qarşılanıb.

Hərbçilərimizin nümunəvi çıxışları tədbir iştirakçılarının alqışları ilə müşayiət olunub.

**✍ Rauf ƏLİYEV**

## Şərurda daha çox sənaye və emal müəssisələrinin yaradılması üçün münbit şərait var

*Yerli istehsalın milli iqtisadiyyatın qurulmasındakı əhəmiyyəti dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsində özünü sübut etmişdir. İqtisadi müstəqilliyin təmin olunması üçün tamamilə yerli imkanlara əsaslanan istehsal bu baxımdan sahibkarlığı cəsarətləndirən, insanların işgüzarlığını və sosial fəallığını yüksəldən mühüm şərtlərdəndir. Xüsusən emal sənayesi bölgədə hasilat sənayesi və kənd təsərrüfatında istehsal olunmuş xammalın istehlak üçün hazır olan son məhsul kimi ərsəyə gətirilməsində mühüm rol oynayır. Ölkəmizdə və muxtar respublikamızda milli iqtisadiyyatın bir sahədən asılılığının azaldılması və onun daha da şaxələndirilməsi istiqamətində görülən işlər baxımından emal sənayesinin inkişaf etdirilməsinin əhəmiyyəti açıq görünür.*





Şərur özünün ərazisi, insan ehtiyatları, təbii sərvətləri və tarixi təsərrüfatçılıq ənənələri ilə təkcə Naxçıvan Muxtar Respublikasında deyil, ölkəmizdə seçilən rayonlardandır. Şərur deyəndə, ilk olaraq qonaqpərvər, vətənini, torpağını hər şeydən çox sevən cəsur insanlar və ildə iki dəfə məhsul əldə olunan bərəkətli torpaqlar, Arpaçayın bol suyundan bəhrələnmiş taxıl zəmiləri, geniş bağ-bostanlar yada düşür. Bəli, Şərur torpağının sirrini şərurlular hamıdan yaxşı bilirlər. Məhz yazın ortasından başlayaraq bazara çıxarılan Şərur nemətləridir ki, Naxçıvanın hər yerində kütləvi ucuzluğa səbəb olur, əhali bunlardan alıb istifadə edir, müxtəlif üsullarla qış ehtiyatı yaradır. Bir sözlə, təbiət Şərurdan heç nəyi əsirgəməyib.

Müasir bazar iqtisadiyyatı, müstəqil ölkəmizin dünyanın hər yeri ilə genişlənən iqtisadi əlaqələri və Naxçıvan Muxtar Respublikasında sahibkarlığın təşviqi istiqamətində görülən işlər Şərurda da müxtəlif sahələrin inkişafı üçün əlverişli şərait yaradıb. Hazırda Şərurda 400-dən artıq müxtəlif profilli sahibkarlıq subyekti fəaliyyət göstərir ki, bunlardan da yalnız 50-yə yaxını müxtəlif xammal əsasında istehsalla məşğul olur. Şübhəsiz, müasir iqtisadi inkişaf və işgüzarlıq mühitində Şərur kimi böyük bir rayonda bu qədər sayda istehsal və emal müəssisəsinin fəaliyyət göstərməsi az nailiyyət olmasa da, bununla kifayətlənmək də olmaz. Çünki muxtar respublikamızda daxili bazarın tələbatının artması ilə yanaşı, ixrac imkanlarımızın da genişlənməsi yerli istehsal üçün əlverişli şərait yaradıb. Muxtar respublikaya texnoloji avadanlıq gətirilməsi, sahibkarlığa verilən kredit dəstəyi, daxili bazarın qorunması ilə yerli istehsalçıların işinin stimullaşdırılması hər cür istehsal və emal işi ilə məşğul olmaq istəyənə geniş imkanlar açır. Dövlətimiz də emal sənayesini inkişaf etdirməklə muxtar respublikamızın bölgələrində yeni iş yerlərinin yaradılması, idxaldan asılılığın azaldılması və valyuta vəsaitlərimizə qənaət olunması kimi ali məqsədlər güdür.

Şərur rayonunda fəaliyyətdə olan emal və istehsalyönümlü müəssisələrə baxdıqda burada, əsasən, lavaş bişirilməsi olmaqla, bir neçə kərpic və qapı-pəncərə istehsalı sahəsi və dəyirmanları görürük. Bunlardan və spirtli içkilər istehsal edən "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətindən başqa, rayonda fəaliyyət göstərən bir neçə istixana kompleksini də istehsalyönümlü müəssisə kimi qeyd edə bilərik.

Şərur iri kənd təsərrüfatı rayonudur. Amma muxtar respublikamızda hansı marketə daxil olsaq, ölkəmizin digər yerlərindən və xaricdən idxal olunmuş paketlənmiş süd və süd məhsullarını görməkdəyik. Eynilə hər gün bazar və marketlərimizdə muxtar respublikamızdan kənarda istehsal olunmuş ət məhsullarına da xeyli pul ödəyirik. Amma, görəsən, gözəl paketlənmiş şəkildə marketlərimizdə satılan, lakin mənşəyi məlum olmayan meyvə şirələrinin hansının dadı hər il Şərur bağlarında hasilə gələn min tonlarla şaftalı, ərik, gilas, gilənar kimi meyvələri əvəz edə bilər? Şübhəsiz, heç biri. Belə olduqda, ənənəvi ticarətdən istehsala keçmək üçün şərurlu sahibkarları daha nə düşündürür? Bilirik ki, Naxçıvanda yerli məhsullara, xüsusən hər bir nemətin hasilə gəldiyi yerdə emal olunub qablaşdırılma ənənəsinə böyük dəyər verilir. Məsələn, sadə naxçıvanlı süfrəsində holland pendiri əvəzinə, Nehrəm pendiri görmək istədiyi kimi, Ordubad kompotunu, Şahbuz balını heç zaman heç nə ilə dəyişməz. Eynilə Şərurun süd məhsulları bu gün marketlərimizdə satılan idxal məhsullarının yerini tutmağa, "Sirab", "Badamlı" suları kimi xaricə də ixrac olunmağa layiqdir. Vaxtilə Şərurda mövcud olmuş üzümçülük və şərabçılıq ənənələrini, onun gəlirlərini indi də bir çoxları yaxşı xatırlayır. O dövrdən fərqli olaraq, indi torpağın kəndliyə verildiyi, texnika parkının tamamilə yeniləndiyi, nəqliyyat işlərinin sürətləndiyi, təsərrüfat əlaqələrinin sadələşdiyi və xarici bazarlara çıxış üçün hər cür təşviq mexanizminin mövcud olduğu bir vəziyyətdə sahibkarlarımız muxtar respublikamızın bütün bölgələrinin istehsal-iqtisadi imkanlarını hərəkətə gətirmək üçün çalışmalıdırlar. Çünki bizim sahibkarlar, doğrudan da, çox qoçaqdırlar. Elə Aşağı Aralıq kəndində fəaliyyət göstərən "Arpaçay" MMC-nin sahibi Elxan Əliyev kimi.

Elxan Əliyevin Aşağı Aralıq kəndindəki dəyirmanına baş çəkəndə burada qaynar iş gedirdi. Kefinin çox kök olduğu sahibkar söhbətində bildirdi ki, 2001-ci ildən iş qurub. Altı nəfər işçisi var. Burada saatda 600 kiloqrama yaxın buğdanı üyüdə bilir. Şərurdan başqa, Kəngərli, Babək və Culfadan da sifarişçiləri vardır. Dediyinə görə, onun həm də Naxçıvanda yetişən buğdanın unundan lavaşbişirmə sexi də fəaliyyət göstərir. Ata məsləyi olduğu üçün dəyirmançılıq işini də yaxşı bilir. Əslən Havuşdan olduğundan gələcəkdə oradakı su dəyirmanını da bərpa edib işini genişləndirmək istəyir.

"Şərur-3" MMC-də yüksəkkeyfiyyətli spirtli içkilər istehsal edilir. Rayonun Məmmədsabir kəndində fəaliyyət göstərən bu müəssisəyə Sahibkarlığa Kömək Fondu tərəfindən 180 min manat dövlət maliyyə dəstəyi göstərilib, geniş ərazidə emal bölməsi, istehsal və qablaşdırma sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana, laboratoriya və digər yardımçı otaqlardan ibarət ikimərtəbəli bina tikilib istifadəyə verilib. Türkiyə Respublikasından müasir texnoloji avadanlıqlar alınıb, istehsal prosesi avtomatlaşdırılıb.

"Şərur-3" MMC-də yerli xammal əsasında albalı, ərik, şaftalı, heyva, qara tut, zirinc, kəklikotu, baldırğan cövhərlərindən və yüksəkkeyfiyyətli spirtdən hazırlanmış 3 çeşiddə likör və 14 çeşiddə araq istehsal edilir. Müəssisədə istehsal edilən məhsullar gümüş filtrdən keçirilərək standartlara uyğun süzülüb 100, 250 və 500 millilitrlik şüşə butulkalara qablaşdırılır. Müəssisənin direktoru Zakir Məmmədov bizimlə söhbətində bildirdi ki, məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların ölkəmizin digər regionlarında və xarici bazarlarda satışa çıxarılması nəzərdə tutulub.

*Göründüyü kimi, Şərur bütün sahələrdə olduğu kimi, emal sənayesində də geniş potensialı olan bir bölgəmizdir. İnanırıq ki, yaxın gələcəkdə şərurlu sahibkarlar dövlət dəstəyindən bəhrələnərək yeni emal müəssisələri yaradacaqlar.*

**Əli CABBAROV**

## Yüksək keyfiyyətin, nümunəvi xidmətin ünvanı – *Müasir Məkan*





Nahar fasiləsi zamanı "Cahan" Ticarət Mərkəzindən yüngülvari bazarlıq edib evə dönərkən əlindəki torbaları güclə daşıyan qonşum Nazimə də kömək etdim.

– Qonşu, illik bazarlıq edirsən? – deyə zarafat etdim.

– Yox, Bakıya gedəcəyəm. Qohumlar Naxçıvan göyçəsi, Ordubad limonu, tərxun, Nehrəm pendiri, bir də Naxçıvan kolbasası istəyiblər. Ona görə bazarlığım bir az normadan artıq olub, – deyib güldü.

– Yaxşı, sadaladığın bu məhsullar ki var, onlar dad-tamı ilə seçilən sırf Naxçıvan məhsullarıdır. Yəni bu məhsulları pay aparmaq lazımdır. Bəs Naxçıvan kolbasasını niyə aparırsan? Əvvəllər səfərə gedən tanış-bilişdən Moskva, yaxud da Bakı kolbasası alıb gətirməyi xahiş edirdik. İndi nə dəyişib?

Qonşum əlindəkiləri yerə qoyub nəfəsini dərdi:

– Bəli, Naxçıvan həmin Naxçıvandı. Dəyişən isə zamandır. Özü də Naxçıvanın xeyrinə dəyişən zaman. Bu zaman kəsiyində özünü təsdiq edən məhsullarımız sırasına düşən, brend olaraq tanınan Naxçıvan kolbasaları da var.

– Hansı müəssisənin istehsal etdiyi kolbasanı almısan? – deyə soruşdum.

– Mağazalarda, marketlərdə "Bərəkət"in, "Hilal"ın və "Müasir Məkan"ın kolbasaları var. Mən keçən dəfə "Müasir Məkan"ın məhsullarını pay apardım, xoşlarına gəldi, dadlıdır dedilər. Elə bu dəfə də həmin məhsullardan alıb aparmağı xahiş etdilər. Mən də "Müasir Məkan"a gedib, elə müəssisədə fəaliyyət göstərən firma mağazasından aldım, özü də münasib qiymətə.

Ertəsi gün Naxçıvan şəhərinin Babək məhəlləsində yerləşən "Müasir Məkan" Ət və Ət Məhsulları İstehsalı Müəssisəsinə getdik. Səliqə-sahmanı ilə gözoxşayan istehsal müəssisəsindən çox istirahət mərkəzini xatırladan bu məkan qədimliyi saxlanılmaqla müasirləşən Naxçıvanın gözəl guşələrindən birinə çevrilib. Mühafizə xidmətindən müəssisənin direktoru Ziyafəddin Məmmədovu soruşduq.

– Yeməkxanadadır. İşçilərlə birlikdə nahar edir, – deyib getdi. Bir azdan Ziyafəddin müəllimlə döndü. Həmişəki kimi zarafatından qalmayan Ziyafəddin müəllim:

– Qayınananız sizi çox istəyir, yemək üstünə gəlmisiniz, – deyib bizi də yeməkxanaya aparıb müəssisənin istehsal etdiyi məhsullardan hazırlanmış dadlı təamlara qonaq etdi. Nahar fasiləsindən sonra müəssisəni gəzdik, istehsal prosesi ilə tanış olduq.

Ziyafəddin Məmmədovun dediklərindən:

– 2003-cü ildə kiçik bir sexdə fəaliyyətə başladıq. Düzü, məhsullarımıza tələbatın bu qədər artacağını təsəvvür etmirdik. Təbii ki, artan tələbatın ödənilməsi, daha çox və daha keyfiyyətli məhsul istehsal etmək üçün yeni binanın inşa olunması, daha müasir texnoloji avadanlıqların alınması zərurəti yarandı. Bu isə imkanımız xaricində idi. Biz də dövlət qayğısından bəhrələndik. Müəssisəyə Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərildi. Naxçıvan şəhərinin Babək məhəlləsində istehsal müəssisəsi üçün ayrılmış ərazidə müasir layihə əsasında istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, inzibati bina tikib istifadəyə verdik. 2011-ci ilin əvvəllərində fəaliyyətə başlayan müəssisədə Polşa istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün Culfa rayonunun Gülüstan kəndi ərazisində yardımçı təsərrüfat yaradılıb. Hazırda müəssisədə "Naxçıvan", "Halal" və "Doğma tam" çeşidlərdə hisə verilmiş və bişirilmiş kolbasa, eləcə də sosiska istehsal olunur. Fəaliyyətə başlayan zaman 2-3 çeşiddə ət və ət məhsulları istehsal olunan müəssisədə hazırda 22 çeşiddə məhsul istehsal edilir.

Burada xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək texnoloji proseslərə ciddi əməl olunur: ət və hazır məhsul laborator analizdən keçirildikdən sonra istehsala və satışa buraxılır.

"MM" tanıtım nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dad-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışını təmin etmək məqsədilə Bakı şəhərində satış mərkəzi yaradılıb. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların xarici bazarlara çıxarılması da planlaşdırılır. İqtisadi əlaqələri genişlənən müəssisədə daxili bazarın tələbatına uyğun yeni istehsal sahələri yaradılıb. 2014-cü ildə ətin konservləşdirilməsi istehsalı sahəsi üçün Almaniyanın "ASCA" şirkətindən istehsal gücü saatda 600 ədəd 400 qramlıq tara olan, ətin konservləşdirilməsi istehsalı sahəsində istifadə edilən tara istehsalı üçün Çin Xalq Respublikasından müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Yeni istehsal sahələrinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli yerli ərzaq məhsulları ilə təmin etməklə yanaşı, yeni iş yerlərinin açılmasına da əlverişli şərait yaradıb.

– İstehsal sahəsi ilə yanaşı, xidmət sektorunda da öz bacarığımızı sınadıq. Novruz bayramında istehsal etdiyimiz məhsulları və hazırladığımız milli yeməkləri şənlik iştirakçılarına təqdim etdik. Rəğbətlə qarşılandı. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində muxtar respublikamıza gələn turistlərə və yerli ziyarətçilərə nümunəvi iaşə xidməti göstərilməsi üçün hər cür şərait yaradıldı. Müəssisənin ərazisində də qədimliklə yeniliyin harmoniyası olan quruculuq tədbirləri həyata keçirilib. Toy şənliklərinin keçirilməsi üçün müasir memarlıq üslubu ilə seçilən şadlıq sarayı, qədimliyi özündə yaşadan, xüsusi dizaynla bəzədilmiş, taxtadan qurulmuş, həsir tavanı olan istirahət guşəsi, istehsal olunan məhsulları daha münasib qiymətə alıcılara təqdim edən firma mağazası, fayton arabalarını xatırladan, taxtadan hazırlanmış stol və stullarla bəzədilmiş kafe müştərilərin və şəhərimizə gələn əcnəbi qonaqların istifadəsinə verilib. Elə düşünürəm ki, kifayət qədər məlumat verdim, – deyən Ziyafəddin Məmmədov yüksəklikdə yerləşən, tariximizi, keçmişimizi özündə yaşadan "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini göstərərək:

– Orada da "Müasir Məkan"ın istehsal etdiyi məhsullardan hazırlanan isti yeməklər və müxtəlif milli yeməklərimizi turistlərə təqdim etmək imkanı olan hər cür şəraitə malik yeməkxana, çay evi fəaliyyət göstərir. Elə çayımızı da orada içək, – deyib maşına tərəf yönəldi.

Qala divarları üzərində sıralanmış stulların birində oturub, elə mis çaynikdə, limonlu çay içə-içə nümunəvi xidmətin ünvanı olan bu məkandan qədimliyi saxlanılmaqla yeniləşən, müasirləşən Naxçıvanın, dəmiryol vağzalına, "Duzdağ" otelədək sıralanan, sayrışan ulduzları xatırladan, elektrik dirəklərindən ətrafa nur saçan lampaların, Bayraq Meydanında dalğalanan, qürur mənbəyimiz olan üçrəngli bayrağımızın yaratdığı ecazkar mənzərəni seyr etdik. Azərbaycanın bu qədim diyarında aparılan, bir vaxtlar əlçatmaz, inanılmaz görünən, vətənpərvərlikdən doğan, ağır zəhmətdən bəhrələnməklə reallığa çevrilən, gözoxşayan mənzərə qəlbimizə rahatlıq gətirdi.

**Kərəm HƏSƏNOV**

# Naxçıvanda ədəbiyyatşünasların əksəriyyəti ədəbiyyat tarixi üzrə araşdırmalar aparır, ancaq çağdaş ədəbi prosesə məşğul olmurlar

***Azərbaycan ədəbi mühitinin ayrılmaz tərkib hissəsi olan Naxçıvan ədəbi mühiti ümumazərbaycan məkanında özünü təsdiq etdirib. Bu mühitin formalaşması prosesi uzun bir yol keçib. Azərbaycan ədəbiyyatına Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi kimi görkəmli korifeylər bəxş edən Naxçıvan ədəbi mühiti bu gün hərtərəfli dövlət qayğısı əhatəsindədir. Filologiya üzrə elmlər doktoru, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Hüseyn Həşimli ilə söhbətimizdə bəzi suallara aydınlıq gətirməyə çalışdıq.***

***– Hüseyn müəllim, söhbətimiz ədəbi tənqid barədə olacaq. Ədəbi prosesdə tənqidin rolu nədən ibarətdir?***

– Bəzən ədəbi tənqid deyəndə yalnız hər hansı bədii əsəri tənqid etmək, onun nöqsanlarını göstərmək başa düşülür. Əlbəttə, ədəbi tənqidin əsas vəzifələrindən biri budur. Lakin ədəbi tənqid ədəbiyyatşünaslığın üç əsas şöbəsindən biri kimi, bütövlükdə, müasir ədəbi proseslə məşğul olur, onu təhlil edib dəyərləndirir, yeni yaranan əsərlərə obyektiv və operativ qiymət verir. Və təbii ki, bu zaman müşahidə olunan müsbət məqamları da, yol verilmiş qüsurları da əsaslandırılmış şəkildə nəzərə çatdırır. Yəni ədəbi tənqid çağdaş ədəbi prosesin yolyoldaşı olmaqla təkcə nöqsanları yox, həm də uğurları müəyyənləşdirib diqqət mərkəzinə çəkir, inkişafın meyil və istiqamətləri barədə fikir bildirir. Məşhur rus ədibi A.S.Puşkin haqlı olaraq yazırdı ki, "Tənqid ədəbiyyat və incəsənət əsərlərindəki gözəllikləri və nöqsanları açmaq elmidir". Əsər müəllifinin gələcək yaradıcılıq axtarışlarının daha dolğun xarakter alması, təkmilləşməsi, nöqsanların aradan qaldırılması üçün ədəbi tənqidin rolu böyükdür. Tənqid ədəbi prosesə təkan verir, onun dinamik inkişafını daha da gücləndirir. Eyni zamanda ədəbi tənqid həm də oxucular üçün faydalıdır. Onlarda hər hansı bədii nümunə, ümumən, ədəbi proses barədə daha dürüst qənaətlər formalaşmasına kömək göstərir. Müxtəlif alimlər tərəfindən tənqidin "hərəkətdə olan estetika", "ədəbiyyatşünaslığın operativ ştabı" adlandırılması da bu mənada təsadüfi deyil.

***– Müasir cəmiyyətdə ədəbi tənqidə münasibət haqqında nə deyə bilərsiniz?***

– Bu məqamda ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan yazıçılarının VII qurultayında söylədiyi aşağıdakı fikirləri xatırlatmaq istərdim: ***"Müasir ədəbi-bədii prosesi tənqidçilərin, ədəbiyyatşünasların fəal və faydalı işi olmadan təsəvvür etmək mümkün deyildir. Onlar bədii həyatımızın mürəkkəb, bəzən ziddiyyətli proseslərini dərindən təhlil etməyə və ümumiləşdirməyə borcludurlar".*** Ədəbi tənqidin, ümumən, ədəbiyyatşünaslığın önəmli vəzifələri bu qiymətli fikirdə dəqiqliklə ifadə olunub.

Çağdaş cəmiyyətimizdə də ədəbi tənqidin özünəməxsus mövqeyi və missiyası vardır. Hüquqi dövlət quruculuğu prosesində böyük uğurlar qazanmış müstəqil Azərbaycanda bütün digər sahələrlə yanaşı, elmi-ədəbi mühitdə də fikir plüralizmi, sərbəst düşüncənin hərtərəfli şəkildə təqdimi üçün hər cür şərait yaradılıb. Senzuranın ləğv olunduğu ölkəmizdə şair və yazıçılar da, tənqidçilər də öz düşüncə və baxışlarını ifadə etməkdə, ən müxtəlif yaradıcılıq axtarışları aparmaqda tam sərbəstdirlər. Ədəbiyyatda ildən-ilə artan yazarların qələmi ilə araya-ərsəyə gələn çoxsaylı əsərlərin, necə deyərlər, saf-çürük edilərək obyektiv şəkildə dəyərləndirilməsinə, əslində, ədəbi mühitin də, oxucuların da, geniş mənada, ictimaiyyətin də ehtiyacı var. Bu qədər əsər bolluğu şəraitində pisi yaxşıdan, istedadı həvəskardan, professionalı diletantdan ayırmaq çox vacib məsələdir və bu məqamda ədəbi tənqid özünün obyektiv, qərəzsiz və inandırıcı mövqeyini əsaslandırıb ortaya qoymalıdır. Ədəbi tənqidin fəallığı, öz vəzifələrini yerinə yetirməsi istiqamətində əhəmiyyətli işlər görülsə də, fikrimcə, bu, hələ tam şəkildə kifayət deyil.

***– Naxçıvanda bugünkü ədəbi mühiti ədəbiyyatşünas-alim kimi necə qiymətləndirirsiniz?***

– Minnətdarlıq duyğusu ilə qeyd etmək istərdim ki, muxtar respublikamızda bütün digər sahələrlə yanaşı, ədəbiyyatın və ədəbi tənqidin hərtərəfli şəkildə inkişafı üçün hər cür şərait var. Naxçıvanda Yazıçılar Birliyi fəaliyyət göstərir, nəşriyyatların, mətbuat orqanlarının, televiziya və radio redaksiyalarının qapıları yaradıcı ziyalıların üzünə açıqdır. Onların fəaliyyəti yetərincə işıqlandırılır. Dövlət vəsaiti ilə nəşr olunan ədəbi almanaxları, topluları, kitabları, o cümlədən ədəbi gəncliyin istedadlı və ümidverici nümayəndələrinin əsərlərinin çapını xatırlatmaq yerinə düşər. Yaradıcı ziyalılara göstərilən ardıcıl və hərtərəfli dövlət qayğısı, onların əməyinin yüksək səviyyədə qiymətləndirilməsi də hamıya bəllidir. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 2012-ci ilin oktyabrında keçirilmiş konfransında Ali Məclisin Sədri cənab Vasif Talıbovun dərin məzmunlu çıxışı görülmüş işlərə qiymət verilməsi ilə yanaşı, qarşıda duran mühüm vəzifələrin diqqət mərkəzinə çəkilməsi baxımından da böyük əhəmiyyətə malikdir.

Hazırda Naxçıvan Yazıçılar Birliyi ətrafında, təxminən, səksən nəfər üzv cəmləşmişdir ki, onlar da şair, yazıçı, dramaturq, tərcüməçi, tənqidçi və ədəbiyyatşünaslardan ibarətdir. Buraya birlik üzvü olmayan qələm sahiblərini də əlavə etsək, böyük bir yaradıcı heyətdən söz aça bilərik. Son illərdə bu müəlliflərin çoxsaylı kitabları çap olunub, o cümlədən bir sıra xarici ölkələrdə onların əsərləri nəşr edilib. Bu əsərlər sırasında ideya-bədii mükəmməlliyə malik, Azərbaycan ədəbi mühitində fərqləndirilməyə layiq olan nümunələr də az deyil. Onların sırasında gənc müəlliflərin varlığı da qürurvericidir. Bunlar hamısı yaxşıdır və ədəbi mühitimizin hazırkı inkişafının əyani təzahürüdür.

Bunlarla yanaşı, bütövlükdə ölkə ədəbiyyatında olduğu kimi, Naxçıvan ədəbi mühitində də bəzi təsadüfi imzalar var, xüsusən poeziya sahəsində. Az-çox qafiyə quraşdıra bilənlər də bəzən qələmə qurşanırlar. Az, yaxud çox yazmaqlarından asılı olmayaraq, onların qələm məhsullarının əsl ədəbiyyata aidiyyəti yoxdur. Ədəbi tənqid gərək bunlara diqqət yetirsin. Öz obyektiv münasibətini ortaya qoysun.

***– Hüseyn müəllim, elə bu məqamda soruşmaq istərdim: muxtar respublikada ədəbi tənqidin vəziyyəti sizi qane edirmi?***

– Səmimiyyətlə deyim ki, o qədər də yox. Doğrudur, ayrı-ayrı ədəbi-tənqidi məqalələr, ədəbi icmallar, ələlxüsus da resenziyalar yazılır, yaradıcılıq müzakirələri keçirilir, yeni yaranmış əsərlər, ümumən, cari ədəbi proses barədə müəyyən dəyərləndirmələr aparılır. Mən söhbətimizin əvvəlindən bir məqamı bir daha xatırlatmaq istəyirəm. Bəli, ədəbi tənqid çağdaş ədəbi prosesin uğurlarını, dəyərli ədəbi əsərləri qiymətləndirib yeri gələndə təbliğ də etməlidir, nöqsanları da göstərməkdən çəkinməməlidir. Görülmüş işlərin əhəmiyyətini azaltmamaqla deyim ki, ədəbi tənqid daha çox tərif ovqatlı resenziyalar yazmağa meyillidir.

Təəssüf ki, bu gün bir yeni yaranan əsərlərə münasibətdə ədəbi tənqidin operativ və obyektiv münasibətinin çox vaxt şahidi olmuruq. Hətta uğurlu bir əsər ortaya çıxanda da onun haqqında yazılan məqalədə əsərin ideya-bədii məziyyətləri, çağdaş ədəbi prosesə gətirdiyi yeniliklər və sair elmi səviyyədə təhlil edilmir, əvəzində ümumi tərif axarı baş alıb gedir. Hansı ki, sadəcə, əsərin adını dəyişməklə bu müsbət rəyi istənilən digər bədii nümunəyə şamil etmək olar. Bu da ona görə belədir ki, bəzi əhliqələm özünə əziyyət verməyərək bədii əsəri lazımınca incələmir, ümumi sözlərlə müsbət fikir bildirir. Bədii əsərlərdəki qüsurlara isə ədəbi tənqid tərəfindən lazımi prinsipial münasibət çox vaxt göstərilmir. Ən yaxşı halda bir-iki cümləlik ümumi səciyyəli şablon cümlələrlə tənqid öz missiyasını bitmiş hesab edir.

***– Bəlkə, ədəbiyyatşünaslar o kitabları oxumadan fikir bildirirlər?***

– Ən vacib məsələ elə budur. Tənqidçi ədəbi prosesi ardıcıl və hərtərəfli şəkildə izləməli, oxuyub təhlil etməlidir.Yəni əsl ədəbi tənqid nümunəsi ortaya qoymaq istəyən tənqidçi, ədəbiyyatşünas həm də geniş mütaliə sahibi olmalıdır. Tənqidçi və ədəbiyyatşünaslarımız yazarların yaradıcılığını lazımi səviyyədə izləmirlər. Belə olan halda, təbii ki, dolğun, ümumiləşdirici, əhatəli ədəbi tənqid nümunələri də az-az ortaya çıxacaq.

***– Qeyd etdiyiniz kimi tənqidçilər yaxşı əsər haqqında da, zəif əsər barədə də eyni fikirləri söyləyirlər. Bu fikirlər şair və yazıçıların sonrakı fəaliyyətində açıq-aşkar hiss olunur. Bu barədə nə düşünürsünüz?***

– Ədəbi əsərlərindəki nöqsanlar tənqid olunmayan, yalnız təriflənən yazarların bir qismində özündənrazılıq, müştəbehlik də baş qaldıra bilir. Beləcə, "ədəbi dühaların" formalaşmasına ədəbi tənqid öz laqeydliyi, yaxud süni tərifləri ilə sanki xeyir-dua verir. Tənqid olmayanda ustad tənqidçi Seyid Hüseynin vaxtilə dediyi kimi: "Hər əli qələm tutan özünü birinci sanacaq".

Ədəbi əsər müəllifləri də gərək tənqidi obyektiv qəbul etsinlər. İbrətli məqamlardan birikisini xatırlatmaq istərdim. Bizim həmyerlimiz, dəyərli yazıçı, publisist və ictimai xadim Əli Səbri Qasımovun 1913-cü ildə çap olunmuş "Solğun çiçək" romanındakı bəzi nöqsanları tənqidçi Seyid Hüseyn "İqbal" qəzetindəki resenziyasında açıq şəkildə göstərmişdi. Ə.Səbri isə bu iradları səmimi qarşılayaraq hətta mətbuatda tənqidçiyə minnətdarlıq məktubu da çap etdirmişdi. Seyid Hüseyn isə başqa bir məqalədə gənc yazıçının tənqidə belə obyektiv yanaşmasını müsbət hal kimi misal çəkmişdi. Eyni həssas münasibəti tanınmış ədibimiz Nəriman Nərimanov "Nadanlıq" pyesinin bəzi qüsurlarını nəzərə çatdıran məşhur ədəbiyyatşünas Firidun bəy Köçərlinin tənqidinə münasibətdə göstərmişdi...

Amma bu gün bir tənqidçi bir yazıçını tənqid edəndə elə də olur ki, əsər qalır bir kənarda, mübahisə şəxsi xarakter alır. Şahidi olmuşam ki, ədəbiyyatşünaslarımızdan birinin, hətta o qədər də dərinə getməyən tənqidinə bəzi yazarlarımız çox sərt reaksiya vermişdilər. Bu məqamda yenə də klassikaya üz tuturam. Tənqidçi Seyid Hüseyn, təxminən, yüz il öncə yazırdı: "Bizim bəzi yazıçılarımızda qəribə halətlər var. Birisi götürüb bir yazıçının və müəllifin səhvini, əsərinin səhv nöqtələrini göstərərsə, onu yazıçı əfəndi özünə qarşı bir təhqir hesab edər. ...Öz yazısından göz örtüb çalışır ki, yazı sahibinə bir ləkə vursun".

Yazıçı, şair, yaxud dramaturqun necə yanaşmasından asılı olmayaraq, ədəbi tənqid, heç şübhəsiz, etik qaydaları, ədəbi əxlaqı unutmamaq şərti ilə əsərə obyektiv qiymət verməlidir, nöqsanlara da göz yummamalıdır. Böyük Mirzə Fətəli Axundzadə vurğulayırdı ki, "Bir şəxs kitab yazdığı zaman başqa bir şəxs onun əsərinin mətləbləri xüsusunda kritika yazar; bu şərtlə ki, müəllif haqqında ədəbsiz və könül incidən bir söz belə, olmasın; hər nə deyirlərsə, incəlik yolu ilə deyilsin".

Ədəbi tənqidin zərurətindən ağızdolusu danışan bəzi yazarlar məsələ konkretləşəndə, özlərinin əsərləri barədə hansısa bir kiçik tənqidi qeyd ortaya çıxanda fərqli yanaşma göstərirlər. Xalq şairi Süleyman Rüstəm sanki beləlerinin dilindən yazıb:

*Xatirimə dəyməyin, damağım çağ olanda,*
*Tənqid çox yaxşı şeydir, məndən*
*uzaq olanda.*

Sənət adamlarımız əsərlərinə dürüst qiymət verilməsində maraqlı olmalı, ədəbi tənqidin haqlı, əsaslı münasibətindən doğan tənqidi səmimi qəbul etməlidirlər. Bu məqamda ustad ədəbiyyatşünas, akademik Məmməd Cəfər Cəfərovun vaxtilə bu kontekstdə yazılmış bir məqaləsinə seçdiyi ad yadıma düşür: "Tənqidçi ədalətli, yazıçı təvazökar olmalı".

***– Son olaraq muxtar respublikada yaradıcı insanlara ədəbiyyatşünas-alim kimi sözünüz?***

– Ədəbi tənqidin obyektiv, operativ və hərtərəfli elmi dəyərləndirmələrinin olması çox vacibdir. Bu, yazarlar üçün də, elə ədəbi tənqidin özü üçün də faydalı və gərəklidir.Tənqidçi və ədəbiyyatşünaslar muxtar respublikanın çağdaş ədəbi mühitinə münasibətdə fəallıq göstərməlidirlər. Naxçıvanda istedadlı və qabiliyyətli yazıçı, şair və dramaturqlarla yanaşı, professional ədəbiyyatşünaslar da az deyil, amma mən də daxil onların böyük əksəriyyəti ədəbiyyat tarixi üzrə araşdırmalar aparır, çağdaş ədəbi proseslə ümumən məşğul olmur, ya da bu sahəyə arabir diqqət yetirir, bəzi məqalə və resenziyalar yazmaqla işlərini bitmiş sayırlar. Muxtar respublikamızda yaşayıb fəaliyyət göstərən ədəbiyyatşünas-alimlər, eləcə də gənc tədqiqatçılar çağdaş ədəbi prosesin təhlil olunub ümumiləşdirilməsi, dəyərləndirilməsi ilə ardıcıl, daimi, hərtərəfli məşğul olmağa diqqəti daha da artırmalıdırlar. Azərbaycanın paytaxtında, eləcə də digər bölgələrdə muxtar respublika ədəbi mühitinin yaradıcılıq uğurlarının, layiqli əsərlərin yetərincə təbliği və tanıtdırılması işinə də ədəbi tənqid diqqəti gücləndirməlidir. Hesab edirəm ki, biz Naxçıvan ədəbi mühitinin dünəni və bu günü barədə kitab və məqalələrin xarici ölkələrdə nəşri işinə də xüsusi fikir verməliyik. Bu sahədə bədii tərcüməçilər də öz sözlərini deyə bilərlər.

Ümumiyyətlə, muxtar respublikamızda ədəbiyyatın, ədəbi tənqidin hərtərəfli inkişafı üçün yaradılmış yüksək şərait müqabilində hər bir qələm sahibi öz potensialını möhtəşəm vəzifələrin daha mükəmməl şəkildə həyata keçirilməsinə yönəltməlidir.

**Söhbətləşdi:**
**✍ Sara ƏZİMOVA**

---

Naxçıvan Muxtar Respublikası ümumtəhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsi

## Müəllimlərin növbəti attestasiyası keçirilib

məqsədilə 2015-ci ilin mart ayında keçirilmiş attestasiya imtahanlarında üzrlü səbəbdən iştirak etməyən, həmin imtahanlarda müəyyən olunmuş bal həddini aşmayan və yeni işə qəbul edilən müəllimlərin attestasiyası keçirilib. Ötən dövr ərzində muxtar respublikanın ayrı-ayrı rayonlarından müraciət etmiş 1142 müəllim qeydiyyata alınıb.

İmtahan Naxçıvan şəhər 4 və 14 nömrəli tam orta məktəblərdə keçirilib. İmtahanlarda müəllimlərə 80 sual təqdim edilib ki, onlardan 40-ı ixtisas, 25-i kurikulum, 10-u metodika, 5-i isə kompüter biliklərinə aid suallar olub. Sualların cavablandırılması üçün müəllimlərə 150 dəqiqə vaxt ayrılıb.

İmtahana Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi və "İstedad XXI əsr" kursunun əməkdaşlarından ibarət 51 nəfər nəzarətçi cəlb edilib.

Qeyd edək ki, həmin gün Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə də müəllimlərin işə qəbulu imtahanları keçirilib. İmtahanda müraciət etmiş 47 müəllim iştirak edib.

---

## Ağbulaq İstirahət Mərkəzinin budəfəki qonaqları şahmatçılar olub



***Cari ilin mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən hər həftə muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzinə səyahətləri təşkil olunur.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə iyunun 26-27-də Ağbulaq İstirahət Mərkəzində 45 şahmatçının istirahəti təşkil edilib.

Naxçıvan şəhərindən ayrılmış avtobuslarla Ağbulaq İstirahət Mərkəzinə yola düşən zəka sahiblərini mərkəzdə təşkilatçıların nümayəndələri qarşılayıblar. Burada şahmatçılara mərkəz haqqında geniş məlumat verilib. Tanışlıqdan sonra zəka sahibləri nahar yeməyinə yollanıblar. Proqrama uyğun olaraq şahmatçılar daha sonra təşkil edilmiş oyunlarda iştirak ediblər. Xüsusilə şahmat turniri böyük marağa səbəb olub. Turnirdən sonra idmançılar Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış olublar. Şam yeməyinin ardınca isə federasiyanın idmançıları üçün vətənpərvərlik mövzusunda "Nuh yurdu – Naxçıvan" sənədli filmi nümayiş etdirilib.

Növbəti günə səhər gimnastikası ilə başlayan şahmatçılar əyləncəli oyunlarda iştirak edib, vətənpərvərlik mövzusunda mahnılar dinləyiblər. Onlar arasında təşkil edilən futbol yarışı da yaddaqalan olub. Nahar yeməyindən sonra idmançıların Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

Federasiyanın sədr müavini Emin Hacıyev şahmatçıların mərkəzdə istirahəti ilə bağlı bizimlə söhbətində vurğuladı ki, belə tədbirlərin təşkili idmançılara əlavə motivasiya yaradır. Şahmat elə bir idman növüdür ki, hər zaman bu idman növü ilə məşğul olanların belə istirahətlərə ehtiyacı olur. Zəka sahiblərimizin bəziləri mərkəzə ilk dəfədir, gəlirlər. Mərkəzdə idmançılar üçün yaradılan şəraitə görə şahmatçılar adından dövlətimizə minnətdarlığımızı bildiririk.

**✍ Ceyhun MƏMMƏDOV**

# Azadlıq həsrətində ərsəyə gələn əl işləri



*Bu dəfə yolumuz Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinədir. Getdiyim bu yol arzuolunan yol deyil. Heç kim istəməz bu ünvana yolu düşsün. Amma həyatda elə hadisələr baş verir ki, özün, qohumun, ailəndəki ən yaxının həyatının bir hissəsini dəmir barmaqlıqlar arasında keçirir. Bəs niyə? Bu sualın cavabı saysız-hesabsızdır. Ən son nəticədə cinayət törənibsə, bunun cəzası da olmalıdır. Yüngül və ya ağır. Dəmir barmaqlıqlar səni gözləyir. Və bundan sonrakı həyat.*





Kütləvi informasiya vasitələrindən dünyanın müxtəlif ölkələrində həbsxanalarda məhkumların xoşagəlməz şəraitdə saxlandığının şahidi olmuşuq. Bəs muxtar respublikamızda necə? Məhkumlar hansı şəraitdə saxlanılır? Onların islah olunması üçün hansı tədbirlər həyata keçirilir? Bu barədə bir az sonra. Amma əvvəlcə onu qeyd edim ki, bu müəssisə 2008-ci ildə fəaliyyətə başlayıb. Buranın yaradılması ilə bir sıra problemlər də öz həllini tapıb. Muxtar respublikada cinayət törətmiş Azərbaycan vətəndaşlarının cəzaçəkmə müəssisələrinə aparılması, eyni zamanda cəza dövründə onların valideynlərinin, yaxınlarının görüşə getmələri blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasında bir sıra çətinliklər yaradırdı. Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin yaradılması bu çətinliklərə son qoyub. Müəssisənin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxış edərək bildirib ki, Azərbaycan vətəndaşları ölkəmizin milli sərvətidir. Biz bu sərvəti qorumalı, vətəndaşlarımızı Azərbaycanın inkişafına, ölkəmizin gələcəyinin, müstəqilliyinin möhkəmləndirilməsinə istiqamətləndirməliyik. Təsadüf, yaxud özünü idarə edə bilməməsi nəticəsində cinayət və ya qanun pozuntusu törətmiş şəxslər isə burada tərbiyə olunmalıdırlar.

Bu ilin fevral ayında müəssisədə yeni yaradıcılıq və istehsalat binasının istifadəyə verilməsi bu funksiyanın yerinə yetirilməsinə böyük töhfəsini verir. Bu, muxtar respublikada insan amilinə nə qədər dəyər verildiyinin göstəricisidir. Oxucularımıza bu binanın fəaliyyəti, burada məhkumların əl işləri barədə məlumat vermək üçün yaradıcılıq və istehsalat binasında olduq.

... Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Təşkilat-nəzarət şöbəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Əli Rəhimovun müşayiəti ilə yeni yaradılan yaradıcılıq və istehsalat binasına daxil oluruq. Məhkumlar iş başındadır. Bir az onları kənardan izləyirəm. Düşünürəm ki, məhkumların islah olunmasında əməyin böyük rolu vardır. Çünki peşə vərdişinə yiyələnmə məhkumun gələcəkdə cəmiyyətə uyğunlaşmasında mühüm rol oynayır.

Qeyd edək ki, bu günə kimi 64 məhkum kompüter istifadəçisi, misgərlik, ağac üzərində oyma və qazanxana maşinisti peşələri üzrə kurs keçib. Azad edilmiş məhkumlar öyrəndikləri peşələr üzrə fəaliyyətlərini davam etdirirlər. Məhkumlarla həmsöhbət oluram. Onlardan Mehdi Kərimov deyir:

– Naxçıvan şəhərindənəm. 8 ildir, azadlıqdan məhrum olunmuşam. Bir ildən sonra azadlığa buraxılacağam. Yaradıcılıq və istehsalat binasında müxtəlif əl işləri hazırlayıram.

Söhbətimizi Elmixan Əliyevlə davam etdirirəm. O, Şərur rayonunun Şəhriyar kəndindəndir. Cəza müddəti 9 il 9 aydır. Bunun 2 il 9 ayı arxada qalıb. Digər məhkum yoldaşları kimi, o da etdiyi əməldən peşmandır. Amma özünə düzgün yol seçməyi qarşısına məqsəd qoyub. Bu düzgün yolun ilk addımını elə yaradılan bu istehsalat sahəsində atıb. Burada əl işlərinin hazırlanmasında məhkum yoldaşlarına köməklik edir.

Culfa rayonunun Dizə kəndindən olan Arzuman Babayev gəncliyinin ən gözəl çağında 5 il azadlıqdan məhrum edilib. O deyir:

– Heç kəsə arzulamaram ki, məhkumluq həyatı yaşasın. Azadlıq qədər şirin nemət yoxdur həyatda. Bax bu gördüyünüz rəsm əsərləri belə, məndən daha azaddır. Bir neçə gündən sonra bu əsərlər azadlıqda müxtəlif insanların əlində olacaq. Amma mən azadlıqda deyiləm. Məndən 20 kilometr aralıda insanlar azadlıqdadır. Amma mən... Törətdiyim cinayətə görə çox peşmanam. Sonrakı peşmançılıq fayda verməz. İki il arxada qalıb. Bu aylar ərzində həyatın mənasını daha yaxşı anladım. Burada başımız çox qarışır. Bu yaradıcılıq və istehsalat binası mənim həyatımda dönüş yaratdı. Azadlıqda bu sənətimi davam etdirəcəyəm.

İki uşaq atası Elmar Fətəliyev burada qazandığı gəliri ailəsinə göndərir:

– İstərdim ki, ailəmin yanında olum, qazandığım puldan övladlarıma nələrsə alıb onları sevindirim. Elədiyim səhv ucbatından onlardan uzaq düşdüm. Düşünürdüm ki, bəs ailəmə, uşaqlarıma necə baxacağam? Bu istehsal sahəsi bizim həm də çörəkpulu qazanmağımıza şərait yaratdı. Bunun üçün dövlətimizə minnətdaram.

Şahbuz rayonunun Külüs kəndindən olan, 9 il azadlıqdan məhrum edilən Elşən Şirinov nərd taxtası üzərinə naxışlar vurur. Onun dedikləri:

– Taxtalara vurduğum hər naxış azadlığın yanğısıdır. Azadlıq həsrətində ərsəyə gəlmiş bu əl işləri bizim üçün çox əzizdir. Burada hərəmiz müxtəlif peşə öyrənirik. Azad olunan şəxslərin əksəriyyəti öyrəndikləri peşələri davam etdirirlər. Bu işi azadlıqda davam etdirəcəyəm. Burada çalışan məhkumların hamısı bu fikirdədir.

11 il azadlıqdan məhrum edilən, 1971-ci il təvəllüdlü Fərhad Rüstəmov 9 ili geridə qoyub. O, duzla müxtəlif əl işləri hazırlayır. Əl işlərinə baxanda belə istedadlı insanı məhkum kimi qarşımızda görmək, sözün əsl mənasında, təəssüf hissi doğurur. Ötən ay "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Yaradıcı əllər" festivalında diploma layiq görülüb.

Məhkumlarla söhbətdən sonra bina ilə tanış oluruq. İkimərtəbəli binada istehsalat və tədris otaqları, yeməkxana və nəzarətçi otağı vardır. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Qəzənfər Mahmudov deyir ki, burada istehsalat prosesi ilə yanaşı, kompüter istifadəçisi, nəqqaşlıq və misgərlik, ağac, daş və duz üzərində oyma, dərzi, rəssam, ayaqqabı təmiri və bərbər peşələri üzrə kurslar təşkil olunur. Bunun üçün tədris otaqları təyinatına uyğun avadanlıqlarla təmin edilib, kompüter otağında 8 kompüter dəsti quraşdırılıb, 29 məhkumun eyni vaxtda müxtəlif peşə fəaliyyəti ilə məşğul olması üçün şərait yaradılıb. Burada açılan ixtisaslar muxtar respublika üçün tələbat olan sahələrdir. Kənd yaşayış məntəqələrində istifadəyə verilən xidmət mərkəzlərində yeni iş yerləri açılıb. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin yaradıcılıq və istehsalat sahəsində müxtəlif peşələri öyrənən məhkumların bir hissəsi gələcəkdə məhkumluq müddəti başa çatdıqdan sonra bu sahələrdə işlə təmin olunacaqlar.

Burada hazırlanan əl işlərinin muxtar respublikada keçirilən müxtəlif sərgilərdə nümayişi və satışı təşkil olunur. Hazırda Naxçıvan şəhərində məhkumların əl işlərinin satışı mağazası fəaliyyət göstərir. Göründüyü kimi, bu tədbirlər muxtar respublikanın hər bir sakininin nə qədər qiymətli olduğunun göstəricisidir. İxtisası və peşəsi olan vətəndaşlar isə ölkəsi və xalqı üçün daha faydalı olur. Bu gün Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin yaradıcılıq və istehsalat binasında müxtəlif səbəblərdən məhkumluq həyatı yaşayan vətəndaşlarımıza peşələr öyrədilir. Bütün bunlar isə həmin insanların cəmiyyətə qaytarılması üçün görülən tədbirlərdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Məhkumlara peşə öyrədilməsi və onların cəmiyyətə sağlam vətəndaş kimi qaytarılması qarşıda duran əsas vəzifədir. Ona görə də məhkumluq həyatı yaşayan vətəndaşlarımıza qayğı ilə yanaşılmalı, onların yenidən həyata hazırlanmaları üçün lazımi tədbirlər görülməlidir... Məhkumlar cəmiyyətdən təcrid olunmamalı, azad olunduqdan sonra ölkəsi və ailəsi üçün yararlı vətəndaşa çevrilməlidirlər".***

Sara ƏZİMOVA

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə Naxçıvan Muxtar Respublika çempionatına yekun vurulub.*

## Futbol üzrə muxtar respublika çempionatı başa çatıb



Sentyabr ayının sonlarında start götürən və 10 komandanın ikidövrəli mübarizə apardığı çempionatın qalibi "Araz-Naxçıvan" futbol komandası olub. "Qırmızı-ağlar" mövsümün ilk görüşündə Naxçıvan Dövlət Universitetinin komandasına uduzsalar da, bu, onların il ərzində ilk və tək məğlubiyyətləri olub. Keçirdikləri 18 oyunun 16-da meydanı 3 xalla tərk edən "Araz-Naxçıvan" bir görüşdə "sülh"ə imza atıb. "Qırmızı-ağlar"ı mövsüm ərzində "DİN Darıdağ" futbol komandası izləsə də, sonda həmin komanda rəqiblərindən 6 xal geridə qalaraq, mövsümü ikinci pillədə başa vurub. Əslində, "DİN Darıdağ"ın cari ildə çıxışını müsbət qiymətləndirmək olar. Lakin komandanın hər iki görüşdə liderə məğlubiyyəti qəbuledilən olsa da, səfərdə gözlənilmədən "Əlincə" komandasına matçda meydanı xalsız tərk etməsi mövsümün sürprizlərindən biri olub.

Mövsümün ilk turunda "Araz-Naxçıvan"ı məğlub edən Naxçıvan Dövlət Universitetinin komandası çempionata iddialı başlasa da, sonradan üzləşdiyi məğlubiyyətlər onu liderlikdən uzaqlaşdırıb. Xüsusilə mövsüm ərzində keçirilən hər iki görüşdə "DİN Darıdağ" komandasına, gözlənilmədən "Batabat" və "Arpaçay" komandalarına minimal hesablı məğlubiyyətlər tələbələri çempionatın yalnız üçüncüsü edə bilib.

Geridə qalan mövsümü "Batabat" komandası üçün uğurlu hesab etmək olar. Üç liderdən geri qalan Şahbuz futbolçuları əzmkar mübarizələri nəticəsində mövsümü dördüncü pillədə başa vurublar. "Batabat" komandasında nəzərəçarpan məqam isə onların səfər matçlarında daha çox xal qazanmaları olub. Eyni zamanda Şahbuz təmsilçisi mövsümü heç-heçə etmədən başa vuran iki komandadan ("Kəngərli" ilə birgə) biridir.

Hər il olduğu kimi, geridə qoyduğumuz bu mövsümdə də turnir cədvəlinin son 2 pilləsində "Kəngərli" və "Sədərək" komandaları "qərarlaşıblar". Kəngərli təmsilçisinin mövsüm ərzində yaddaqalan qələbəsi "Babək" komandası üzərində olub. Sədərəklilər isə "Əlincə"ni məğlub ediblər.

Bu məğlubiyyətlərə baxmayaraq, mövsümün ən çox feyr-pley qaydalarına riayət edən komandası məhz "Sədərək" olub. Onlar il ərzində cəmi 6 sarı, 1 qırmızı vərəqə ilə cəzalandırılıblar. Onları bu siyahıda 8 sarı, 3 qırmızı vərəqə ilə "Batabat" komandası izləyir. Mövsüm ərzində hakimlərin ən çox qəzəbinə tuş gələn komanda isə "Araz-Naxçıvan" olub. Hakimlər "qırmızı-ağlar"ın futbolçularına 18 oyun ərzində 21 sarı, 2 qırmızı vərəqə göstəriblər. Düzdür, bu baxımdan NDU və "Babək" komandalarını da "fərqləndirmək" olar. Referilər mövsüm ərzində müvafiq olaraq ən çox qırmızı vərəqələri bu komandaların futbolçularına göstəriblər – 4 və 5.

Futbol üzrə Naxçıvan Muxtar Respublika çempionatının 2015-2016-cı il mövsümünün ən məhsuldar futbolçusu adını "DİN Darıdağ" komandasının hücumçusu Mahir Babayev qazanıb. O, mövsüm ərzində rəqib qapılarından 15 top keçirib. İkinci və üçüncü pillələrdə isə "Araz-Naxçıvan"ın hücumçuları – Tağı Seyidov və Samir Kərimov qərarlaşıblar. Onların hər ikisi 12 qol vurub.

***Yekun turnir cədvəli***

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 18 | 16 | 1 | 1 | 60-10 | 49 |
| 2. | DİN Darıdağ | 18 | 14 | 1 | 3 | 61-23 | 43 |
| 3. | NDU | 18 | 13 | 1 | 4 | 36-18 | 40 |
| 4. | Batabat | 18 | 12 | 0 | 6 | 41-36 | 33 |
| 5. | Arpaçay | 18 | 10 | 1 | 7 | 36-31 | 32 |
| 6. | Əlincə | 18 | 6 | 1 | 11 | 25-37 | 19 |
| 7. | Babək | 18 | 4 | 4 | 10 | 25-43 | 16 |
| 8. | Dübəndi | 18 | 5 | 1 | 12 | 26-48 | 16 |
| 9. | Kəngərli | 18 | 4 | 0 | 14 | 25-50 | 14 |
| 10. | Sədərək | 18 | 1 | 1 | 16 | 12-51 | 4 |

*Qeyd*: S – sıra, O – oyun, Q – qələbə, H – heç-heçə, M – məğlubiyyət, T/F – top fərqi, X – xal.

Ceyhun MƏMMƏDOV

***İtmişdir***

Naxçıvan şəhəri, A.Tarverdiyev küçəsi 14-də yaşayan Hüseynov Hacı Akim oğlunun adına olan 3846 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 497